**"TƏSDİQ EDİRƏM"**
"Azərsu" Açıq Səhmdar Cəmiyyəti

**Sədr** _____________ **Q.Hüseynov**

"11" may 2012 il.

**"Azərsu" Açıq Səhmdar Cəmiyyəti,**
**Su borcunun internet vasitəsilə öyrənilməsi**
**üzrə inzibati reqlament**

## 1. Ümumi müddəalar

1.1. **Elektron xidmətin adı:** *Su borcunun internet vasitəsilə öyrənilməsi*

1.2. **Elektron xidmətin məzmunu:** *Bu xidmət vasitəsilə bütün abonentlər internet vasitəsilə su borclarını öyrənə bilərlər.*

1.3. **Elektron xidmətin göstərilməsinin hüquqi əsası:** *"Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 23 may tarixli 429 nömrəli Fərmanının 2-ci bəndi.*

1.4. **Elektron xidməti göstərən dövlət qurumunun adı:** *"Azərsu" Açıq Səhmdar Cəmiyyəti (Bundan sonra Cəmiyyət adlanacaq)*

1.5. **Elektron xidmətin digər icraçıları:** *Abonentlərin su borclarının öyrənməsi xidməti yalnız "Azərsu" ASC tərəfindən həyata keçirilir.*

1.6. **Elektron xidmətin avtomatlaşdırılma səviyyəsi:** *Bu sahədə göstərilən xidmət tam avtomatlaşdırılmışdır.*

1.7. **Elektron xidməti icra müddəti:** *Su borcunun öyrənilməsi haqqında sorğu sistemə daxil olunan kimi borc barədə məlumat əldə olunur.*

1.8. **Elektron xidmətin göstərilməsinin nəticəsi:** *Müraciət edən abonentin su borcu haqqında ona tam məlumat verilməsi təmin olunur.*

## 2. Elektron xidmətin göstərilməsinin həyata keçirilməsi

2.1. **Elektron xidmətin növü:** *interaktiv*

2.2. **Elektron xidmət üzrə ödəniş:** *ödənişsiz*

2.3. **Elektron xidmətin istifadəçiləri:** *"Azərsu" ASC-dən su və kanalizasiya xidmətləri alan bütün abonentlər*

2.4. **Elektron xidmətin təqdim olunma yeri:**
*http://www.azersu.az/userfiles/file/abonentler/webabonent.html*

**2.5. Elektron xidmət barədə məlumatlandırma:**
*http://www.azersu.az*
*e-mail: office@azersu.az*
*tel: (012) 431 47 67, 431 47 87*
*Bu prosesdə yaranan hər hansı bir anlaşılmazlığın aradan qaldırılması, həmçinin metodiki dəstəyin göstərilməsi məqsədilə Cəmiyyətin "qaynar xətt" xidmətinə (955) müraciət etmək olar.*

2.6. **Elektron xidmətin göstərilməsi üçün tələb olunan sənədlər və onların təqdim olunma forması:** *Bu elektron xidmətdən istifadə etmək üçün yalnız abonent kodu tələb olunur.*

## 3. Elektron xidmətin göstərilməsi üçün inzibati prosedurlar

3.1. **Elektron xidmətin göstərilməsi və ya imtina edilməsi:**
*Elektron xidmətin göstərilməsindən yalnız serverlərlə internet əlaqəsi kəsildikdə və serverlərə profilaktik qulluq göstərildikdə müvəqqəti olaraq imtina olunur.*

3.2. **Sorğunun icrası:** *Elektron xidmətin göstərilməsi üçün abonent oz su kodunu yuxarıda göstərilən internet ünvanında lazımi yerə daxil etməsi və "Axtar" düyməsinə basmaq kifayətdir . Bu zaman həmin abonentə aid su borcu, sayğac nomrəsi, sayğacın son göstəricisi və son göstərici oxunma tarixini özündə əks etdirən məlumat verilir.*

3.3. **Elektron xidmətin yerinə yetirilməsinə nəzarət:** *Xidmətin yerinə yetirilməsinə nəzarəti Cəmiyyətin İnformasiya və Kommunikasiya Texnologiyaları Departamenti həyata keçirir.*

**3.4. Elektron xidmətin göstərilməsi üzrə mübahisələr:** *Su borcunun internet vasitəsilə öyrənilməsi xidməti üzrə qanunvericiliyə uyğun olaraq şikayət verilə bilər.*